*Aygül Hacıyeva. Müasir türkologiyanın problemləri//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.15-16.* https://doi.org/10.59849/mbcatr.2023.15

**Orcid: 0009-0007-0324-1239**

**Aygül Hacıyeva**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*filologiya elmləri doktoru, dosent*
aygul.akhundoff@gmail.com

# MÜASİR TÜRKOLOGİYANIN PROBLEMLƏRİ

**Aygul Hajiyeva**

## PROBLEMS OF MODERN TURKOLOGY

**Abstract**

Teaching of turkological subjects were formed as a socio-political need in the early times in point of historical view. Beginning from XVII centu ry, turkological subjects studied by Turkish people and Europeans has acquired a new content unlike the initial period in XXI century. Especially, turkological subjects in Azerbaijan were performed in following aspects:

1. In the general ***philological*** direction in the universities of the republic. For instance, we can show the activity of "the Departments of Turkology " in Baku State University and Baku Slaic University. Academician K.Abdullayev foundeed this department in Baku Slavic University in 2000. Department "Turkology " has significant role in upbringing of comprehensive generation of philologists in the mentioned university.
2. ***In the direction of regional studies***. The Teaching of practical turkish language subject has special role in upbringing of modern level regionalists in Baku Slavic University and Azerbaijan University of Languages.
3. Scientific researches performed in the ***Department "Turkology"*** of the Institute of Linguistics of Azerbaijan National Academy Sciences has exclusive role in development of theoretical turkology and it proceeds its activity currently.
4. ***Institute of Manuscripts*** of Azerbaijan National Academy of Sciences obtained great successes in the scope of study of ancient turkological manuscripts and it performed the valuable scientific researches.
5. Significant successes were obtained in the aspect of turkological journal. "***Turkology***" magazine as a continuation of "Sovetskaya Türkologiya" magazine was able to preserve all successes by editorship of academician K.Abdullayev and it proceeds its activity in the level of modern turkological needs.

In the modern period, new prospectives of researches are determined in the scope of teaching of turkological subjects or scientific researches in our republic.
**Key words:** turkology, study, philological, significant

XX əsr ictimai-siyasi baxımdan mürəkkəb tarixi hadisələrlə zəngindir; bir tərəfdən əsrin əvvəllərində sosializm sisteminin meydana gəlməsi, əsrin sonlarında isə bu sistemin dağılması yeni tarixi reallıqlarla müşayət olunurdu. Dünya sosializm sistemi Sovet imperiyasının timsalında Rus imperiyasının davamı kimi mövcud idi və Rus imperiyası sərhədlərində imperiya siyasətini davam etdirirdi. Bundan daha çox əziyyət çəkən türk xalqları idi. Düzdür, bu dövrdə türk xalqlarının dilini, tarixini və etnoqrafiyasını öyrənmək sahəsində müəyyən işlər görülmüşdü, ancaq qeyd olunan türkoloji fəaliyyət imperiyanın maraqları çərçivəsində görülən işlər bəzi türkoloji məsələlərə aydınlıq gətirmirdi. Rus və Sovet imperiyasının türkoloji fəaliyyəti ən başlıcası türk xalqlarının yaxınlaşmasına mane olmaq, türk xalqlarının tarixini saxtalaşdıraraq dayazlaşdırmaq siyasətindən ibarət idi. İmperiyanın yürütdüyü bu siyasətin arxasında onların siyasi və iqtisadi maraqları dayanırdı. Azərbaycanda türkoloji fikir həm Rus, həm də Sovet imperiyası dövründə həmin tarixi dövrün tələblərindən asılı olaraq formalaşırdı; həmin dövr türkologiyası Azərbaycanlı türkoloqlarla yanaşı, rus və digər xalqların türkoloqları tərəfindən yaradılırdı. Bu işlərdə nə qədər mütərəqqi xüsusiyyətlər olsa da, nə qədər uğurlu elmi tədqiqatlar aparılsa

da, milli türkologiyanın tələblərinə cavab vermirdi; mümkün olanlarının da qarşısı çox ciddi şəkildə alınırdı. Sovet imperiyasının dağılması nəticəsində bir çox türk xalqları müstəqilliyini bərpa etməklə yeni dövrün türkologiyasını yaratmaq zərurəti ilə üzləşdilər; türk xalqlarının iqtisadi, siyasi maraqlarından asılı olaraq bir-birinə yaxınlaşması, onlar arasında tarixi əlaqələrin bərpası, sovet represiyası dövründə qarşısı alınmış çox qiymətli elmi tədqiqat işlərinin gündəmə gətirilib davam etdirilməsi, türk xalqlarının tarixinə yeni baxış, tarixi reallığın bərpası və digər bu kimi məsələlər mühüm milli məsələlər sırasında idi. Ən mühüm məsələ imperialistlərin hazırladığı internasional düşüncə tərzindən azad olub multikultural dəyərlərimiz əsasında Azərbaycançılıq və türkçülük dəyərlərimiz üzərində köklənməkdən ibarət idi. Ona görə də yeni dövr türkologiyası bəşəri dəyərlərə əsaslanan sağlam düşüncə üzərində təməl tapmışdır. Bu baxımdan müasir azərbaycançılıq ümumən türkçülük düşüncəsinin ifadəsidir. Türkoloji filologiya, tarix, iqrtisadiyyat, mədəniyyət və incəsənət sahələrində yeni ruhlu türkoloji araşdırmaların meydana gəlməsi müasir Azərbaycan reallığıdır. Bunların içərisində Türkologiyanın yeni ruhda inkişafı, xalqımızın dərin köklərə malik tarixi izərini öyrənmək əsl tarixi reallığı bərpa edib elmi dövriyyəyə daxil etmək, türk xalqlarının milli-etnik düşüncə tərzini, etnopsixologiyasını, ümumən türk tarixini, daha doğrusu, prototürkü dərindən araşdırmaq müasir türkologiyanın mühüm vəzifələrindən biridir. Xüsusilə qədim çin, yunan, ərəb mənbələrində türk tarixinə aid materialların üzə çıxarılıb öyrənilməsi müasir türkologiyamızın mühüm vəzifələrindən biridir.

Tarixi baxımdan türkoloji fənlərin tədrisi ilkin dövrlərdə ictimai-siyasi zərurət kimi meydana çıxmış və getdikcə coğrafi cəhətdən genişlənmişdir. XVII əsrdən başlayaraq Türk xalqları və Avropalılar tərəfindən öyrənilən türkoloji fənlər XXI əsrdə ilkin dövrdəkindən fərqli olaraq yeni məzmun kəsb etmişdir. Xüsusən Azərbaycanda türkoloji fənlər aşağıdakı aspektlərdə aparılır:
1.Respublikanın universitetlərində ümumi ***filoloji*** istiqamətdə. Bunlara misal olaraq Bakı Dövlət Universiteti və Bakı Slavyan Universitetlərində "Türkologiya kafedra"larının fəaliyyətini göstərmək olar. Bakı Slavyan Universitetində bu kafedranın əsasını 2000-ci ildə akad.K.Abdullayev qoymuşdur. Bu Universitetdə hərtərəfli filoloqlar nəslinin yetişməsində "Türkologiya" kafedrasının mühüm rolu vardır;2.***Regionşünaslıq istiqamətində***. Bakı Slavyan Universiteti və Azərbaycan Dillər Universitetində müasir səviyyəli regionşünasların yetişməsində praktik türk dili fənninin tədrisinin xüsusi rolu vardır; 3.Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitunun ***"Türkologiya " şöbəsində*** aparılan elmi axtarışlar nəzəri türkologiyanın inkişafında müstəsna rol oynamışdır və hazırda da fəaliyyətini davam etdirir. 4.Azərbaycan Milli Elmlər Akademiyasının ***Əlyazmalar İnstitutu*** əski türkoloji əlyazmaların öyrənilməsi sahəsində böyük uğurlar əldə etmiş, çox dəyərli elmi tədqiqatlar aparılmışdır.5.Türkoloji jurnal aspektində də mühüm nailiyyətlər əldə olunmuşdur. "Sovetskaya Türkologiya" jurnalının davamı kimi ***"Türkologiya"*** jurnalı akad. K.Abdullayevin redaktorluğu ilə bütün nailiyyətlərini qoruyub saxlaya bilmiş və müasir türkoloji tələblər səviyyəsində fəaliyyətini davam etdirir.

Digər mühüm problem dünyanın müxtəlif ölkələrində mövcud olan türkoloji mərkəzlərin, kafedra və şöbələrin fəaliyyətini öyrənmək və onların koordinasiyasını yaratmaqdan ibarətdir.

Müasir dövr üçün çox ciddi əhəmiyyət daşıyan türkoloji fənlərin tədrisinin optimallaşdırılması, tədris vasitələrinin yeni türkoloji faktlarla zənginləşdirilməsi, Sovet ideologiyasının təsirindən azad etmək kimi mühüm məsələlər də vardır. Buna görə də türkoloji fənlərin müasir tələblər səviyyəsində tədrisinə nail olmaq zəruridir.

Müasir dövrdə hazırlanan milli kadrlarımızın ümumi türkoloji biliyinin olması üçün regionşünaslıq və beynəlxalq münasibətlər fakültələrində ümumi türkoloji fənnin keçirilməsi çox vacibdir.

Yuxarıda sadalanan faktlar türkologiyamızın mühüm problemləri sırasına daxildir və bu sahədə də çox böyük işlər görülür.

Cənab Prezident İlham Əliyevin Respublikamızda apardığı daxili və xarici siyasət müstəqillik dövrü türkçülüyümüzün mayakıdır. İstər türk, istər azərbaycanlı bu tarixi reallığı görür. Cənab Prezidentin türk xalqları ilə bağlı apardığı siyasət sağlam türkçülüyün təməl daşıdır. Biz bunu əsas tutaraq yeni dövr türkçülüyümüzü yaradırıq.

## ƏDƏBİYYAT:


1. Cəfərov, N. (2017). Türkologiyanın müasir problemləri. Bakı: Elm və təhsil
2. Türkologiya (2017). №1, Bakı: Elm